## Azərbaycanda Andlılar Məhkəməsi niyə ləğv edilib?

Bu günki çıxışımın birinci məqsədi Azərbaycan Respublikasının Milli Məclisinə və Prezindentinə bir vətəndaş kimi hesabat xarakterli sual ünvanlamaqdır: Azərbaycanda Andlılar Məhkəməsi institutu niyə və hansı məqsədlə 2014-cü ildə Milli Məclisin verdiyini qərar və 2015-ci ildə Prezidentin imzaladığı fərmanla ləğv edilib?

Çıxışımın ikinci məqsədi isə məni dinləyən millət vəkillərimizə və xalqımıza Andlılar Məhkəməsinin nə olduğunu və bu günki Azərbaycan dövləti üçün bu məhkəmə institunun təcili bərpasının və aktiv fəaliyyət göstərməsinin nədən zəruri olduğunu izah etməkdir.

Hələ tələbə ikən «Суд присяжных» ("Andlılar məhkəsi") adlı İngiltərə, Rusiya və digər qərb ölkələrinin çəkdiyi filmləri izləmişdim, lakin həmin dönəmdə mövzünün ciddiliyinə varmamışdım. Təxminən 1 ay öncə Cənubi Koreya istehsalı olan oxşar adlı filmə baxdım. Film real tarixcə üzərindən çəkilmişdir və Koreyada ilk Andlılar Məhkəməsinin necə keçirildiyini göstərir. Bütün dövlət və müstəqil medianın nəzarəti altında keçiriləcək məhkəmə prosesi Andlılar Məhkəməsinin effektli olub-olmamasını xalqa göstərməli, və faydalı olduğu sübut ediləyəcəyi təqdirdə bu məhkəmə institutu bütün ölkə üzrə aktiv faəliyyətə başlamalı idi. Andlılar məhkəməsi intitutunu yaratmağa dövləti vadar edən əsas səbəblər bunlar idi: hakimlərin çıxardığı yalnış qərarlar nəticəsində günahsız insanların vaxtaşırı ağır cəzalar alması, günahsız olduqları illər sonra sübuta yetirildikdə dövlətin keçmiş məhbuslara məcburən ödəməli olduğu külli miqdarlı kompensasiyalar, ö cümlədən tədricən məhkəmə sisteminə qarşı xalqda yaranan etibarsızlıq, bəzi hallarda isə nifrət. Daha bir səbəb ölkə boyu hakimlərdə peşə fəaliyyətləri ilə bağlı keçirdikləri stressin, həyəcanın və təlaşın artması idi. Cənubi Koreyada vəziyyət o həddə çatmışdı ki, hakimlər onların gözünün içinə baxan hər kəsdən qorxurdular, "Görəsən, bu adam haqqında ədalətsiz qərar çıxarmamışam ki?!" düşüncəsi ilə həmin insandan tez-tələsik uzaqlaşmağa çalışırdılar. Azərbaycanda da vəziyyətin oxşar olduğunu deyə bilərik. 2007-ci ildə yaranmış vəziyyətdən çıxış yolunu, yəni məhkəmələrin və hakimlərin cəmiyyətdəki nüfuzunun, vətəndaşların dövlətə olan inamının bərpasını Koreya dövləti məhz Andlılar məhkəməsinin qurulmasında görür. Beləliklə, ilk iclası uğurla başa çatan Andlılar Məhkəməsi Cənubi Koreyanın məhkəmə praktikasının ayrılmaz hissəsinə çevrilir, ölkədə günahsız həbs edilənlərin, o cümlədən layiq olduğundan artıq həbs cəzası alanların sayı ölkə üzrə kəskin şəkildə azalmağa başlayır. Hakimlər isə qəbul etdikləri qərarların məsuliyyətini andlı iclasçılar qismində ölkənin digər vətəndaşları ilə bölüşdükləri üçün onlarda peşə faəliyyətləri ilə bağlı yaşadıqları stress, həyacan, təlaş hissi da azaldı. Bu filmə baxandan, azca araşdırmalar aparandan sonra anladım ki, tələbə vaxtı baxdığım filmlər də nağıl deyilmiş, "Andlılar Məhkəməsi" həqiqətən də məhkəmə sistemi inkişaf etmiş ölkələrdə real fəaliyyət göstərən bir institutdur. Hüquqşünaslarımız bəlkə də mənim bu uşaq kimi etdiyim etirafıma güləcəklər. Mən hüquqşünas deyiləm, üzrlü saysınlar, lakin çox təəssüf ki, hüquqşünaslarımız bu sahədə xalqı indiyədək maarifləndirməyiblər.

Ona görə də bu gün hüquqşünas olmayan mən bu barədə xalqıma, azacıq da olsa, informasiya verməyə məcburam. Beləliklə, Andlılar Məhkəməsi ilk dəfə İngiltərədə həyata keçirilib, bu gün isə məhkəmə sistemi inkişaf etmiş ölkələrdə - həmin İngiltərədə, Amerikada, İspaniyada, Fransada, Cənubi Koreyada, hətta keçmiş Sovet Respublikaları

olan Qazaxstan və Gürcüstanda belə fəaliyyət göstərən Məhkəmə institutudur. Andlılar Məhkəməsində 10-12 vətəndaşdan ibarət heyət məhkəmə iclasında açıq iştirak edir, müttəhimə, ittiham tərəfinə suallar vermək səlahiyyətinə malik olur, sonda hakimin əvəzinə təqsirləndirilən şəxsin təqsirli olub-olmaması barədə qərar verir və yaxud hakimlər kollegiyası yekun qərarın qəbulunda andlılar heyətinin çıxardığı verdikti mütləq şəkildə nəzərə almalı olur.

Andlılar məhkəməsi ağır cinayətlər kateqoriyasına aid olan işlərə baxır: qəsdən adam öldürmə, qəsdən sağlamlığa ağır zərər vurma, insan orqanlarının alveri, qanunsuz azadlıqdan məhrum etmə, girov götürmə, alçaldıcı və ya qeyri-insani rəftar, təqsirsiz şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi, qanunsuz olaraq psixiatriya müəssisəsinə yerləşdirməsi və s.

Andlılar məhkəməsinin işə baxması müdafiə tərəfinin qaldırdığı vəsatət əsasında həyata keçirilir. Bunun üçün şəxsə qarşı irəli sürülən ittihamın andlılar məhkəməsinin baxdığı cinayətlər siyahısında olması kifayətdir.

Andlılar heyətinə namizədlər təsadüfi seçim prinsipi əsasında seçilirlər. İlkin mərhələdə 300-ə yaxın vətəndaş seçilir. Sonra hakimlərin başçılığı altında bu 300 nəfərlə ümumi iclas keçirilir: burada vətəndaş andlı iclasçı olmaqdan imtina edə bilər (tutarlı səbəb göstərmək şərti ilə - yaşı, sağlamlığı buna imkan vermirsə (çünki məhkəmə prosesi saatlarca uzana bilər, tab gətirmək sağlamlıq tələb edir), və yaxud son bir ildə artıq andlı iclasçı olubsa, uzun müddət ölkədən kənarda yaşayırsa, bu vəzifədən imtina edə bilər. Lakin uyğunsuzluq barəsində məhkəməyə lazımi sənədin təqdim edilməməsi və ya bilərəkdən yalan məlumat verilməsi cərimə və ya azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Nəticə olaraq ilkin iclasda namizədlər siyahısından 12 nəfərlik əsas tərkib yaradılır və 2 ehtiyat andlı iclasçı seçilir. İttiham və müdafiə tərəfləri də andlıların seçilməsində iştirak edə bilərlər. Məhkəmə zamanı az ağır cinayətlər kateqoriyasına aid işlərdə ən azı 6, ağır cinayətlər kateqoriyasına aid işlərdə isə ən azı 8 seçilmiş andlı iclasçının iştirakı mütləqdir.

*Kimlər andlı iclasçı ola bilərlər?*

Rəsmi tərifə görə, dövlət dilini bilən, məhkəmə prosesinin keçirildiyi ərazidə yaşayan, andlı iclasçı vəzifəsini yerinə yetirmək üçün zəruri fiziki və ya əqli qabiliyyətlərə malik olan yetkinlik yaşına çatmış hər bir vətəndaş andlı heyətin üzvü ola bilər.

*Kimlər andlı iclasçı ola bilməzlər?*

- Dövlət vəzifəli və siyasi vəzifəli şəxslər;
- Hüquqşünaslar;
- İttihamçılar;
- Müstəntiqlər;
- Polis işçiləri;
- Hərbi qulluqçular;
- Din xadimlər;
- Eyni iş üzrə cinayət prosesinin iştirakçıları;
- Təqsirləndirilən şəxs;
- Az miqdarda narkotik vasitə qəbul etdiyinə görə inzibati tənbeh (cəza) almış şəxs;

- Əvvəllər məhkum edilmiş şəxs;

- Rəyinə və ya şəxsi təcrübələrinə görə prosesdə iştirakı uyğun sayılmayan insanlar da seçimdən kənarda qalırlar. Məsələn, zorakılıq işində zorakılığın qurbanı olmuş şəxs andlı iclasçı ola bilməz.

Andlı iclasçıların yekun qərarı – ittiham və ya bəraət hökmü – verdikt adlanır. Cinayət işi andlılar üçün xüsusi ayrılmış müşavirə otağında müzakirə edilir və oradaca qərar qəbul edilir. Qərar qəbul edilənə qədər heç bir andlı məhkəmə binasını tərk edə bilməz. Əvvəlcə irəli sürülən bütün ittihamlar üzrə bəraət hökmü səsverməyə qoyulur, hökm çıxarmaq (qərar qəbul etmək) mümkün olmadıqda, ittiham hökmü ittihamın ağırlığının artan ardıcıllığı ilə səsverməyə qoyulur. Hər bir andlı iclasçı öz rəyini bildirir və səsvermədə bitərəf qalmaq hüququna malik deyil. Andlılar məhkəməsi qapalı müşavirənin ilk 4 saatında yekdil qərara gələ bilmədikdə, növbəti 8 saat ərzində qərar səs çoxluğu ilə qəbul edilir.

Dövlət Andlı iclasçıya vəzifəsinin icrasına görə maaş vermir, lakin öz vəzifələrinin icrası ilə birbaşa əlaqədar olan bütün xərclərini ödəyir. İşləyən şəxsdirsə, məhkəmə prosesində andlı iclasçı kimi iştirak etdiyi zaman iş yeri və əmək haqqı qorunub-saxlanılır.

*Andlı iclasçı vəzifəsini yerinə yetirməkdən imtina etmək olarmı?*

Olmaz! Əgər andlı heyətin üzvü göstərilən vaxtda məhkəməyə gəlməzsə, ona tapşırılmış vəzifələri yerinə yetirməzsə və ya lazımınca yerinə yetirməzsə, cərimələnir. O cümlədən, andlı iclasçı məhkəmə müşavirəsinin və səsverməsinin məxfiliyini pozarsa, azadlıqdan məhrum edilə bilər.

Gördüyümüz kimi, məhkəmə sistemi inkişaf etmiş ölkələrdə qanun birbaşa olaraq vətəndaşı ölkənin ictimai həyatında fəal iştirak etməyə məcbur edir. “Ədalət istəyirsənsə, ədalətin təcəlli etməsində iştirakçı ol, mövqeyini bildir!”

MDB ölkəsi olan Qazaxstanda Andlılar Məhkəməsi 2007-ci ildə yaradılıb. Andlılar ittiham olunan tərəfin qaldırdığı vəsatət ilə ömürlük həbs cəzası ilə bağlı olan ağır cinayət işlərinə baxırlar. Məhkəmə Kollegiyası 10 hakimdən və 10 andlıdan ibarət olur. Peşəkar hakim andlıların iclasında iştirak edir və müttəhimın günahkar olub-olmaması barədə düzgün qərarın qəbul edilməsində andlılara yardımçı olur. 2010-ci ildən Andlılar Məhkəməsinin səlahiyyətləri artırılır: ölümlə nəticələnən və qanunsuz narkotik dövriyyəsi ilə bağlı olan cinəyət işlərinə də baxırlar. İldə 250-dən çox işə baxıb qərarlar qəbul edirlər. 2023-cü ildən isə səalhiyyətləri daha da artırılıb və cinayət məcəlləsində nəzərdə tutulmuş daha çox sayda maddələr üzrə məhkəmə işlərini həyata keçirirlər.

Oxşar formatda qonşumuz Gürcüstanda da Andlılar Məhkəməsi fəaliyyət göstərir.

Dünyadakı ədalət ocağlarına virtual səyahət etdik, qayıdaq ədalətin boğdurulmuş olduğu Azərbaycana. Vikipediyada Azərbaycanda haçansa olan Andlılar Məhkəməsi barədə çox qısa bir məqalə var. Son üç cümləsini Sizlərə çatdırıram:

Andlı İclasçılar Kolleqiyası Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada cinayət işlərinə baxılması üçün yaradılan andlı iclasçılardan ibarət qurum idi. 2014-cü ildə Milli Məclisin qərarı ilə ləğv edilib. 2015-ci ildə Azərbaycan

Prezidenti bu barədə müvafiq fərman imzalayıb. (Tarixlərə fikir verin... Tərtər qətliamına, xalqa tutalacaq dəhşətli divanlara hazırlığın bir hissəsidir bu.)

Bu üç cümlə məndə çoxlu sayda sualların yaranmasına səbəb oldu:

1. Ölkədə bu qərara, bu fərmana etiraz edən bir hüquqşünas oldumu?
2. 2014-cü ilədək zəif də olsa fəaliyyət göstərən, bəlkə də ancaq adı olan Andlı İclasçılar Kollegiyası və Andlılar Məhkəməsi İnstitutu ləğv edilməsə idi, Tərtər kimi irimiqyaslı saxta cinayət ittihamları ilə sonsuz sayda məhkəmələr keçirilə bilərdimi?
3. Andlılar Məhkəməsi İnstitutunun ləğv edilməsi bir daha bu xalqın heçə sayılması deyildimi? Prezident tərəfindən təyin edilən hakimlərin fəaliyyətini nəzarətdə saxlamaq üçün ölkədə heç bir institut qalmayıb. Hamı azad medianın susdurulmasından danışır, Vəkillik İnstitutun bərbad hala salınmasını etiraf edənlər olur. Bəs birbaşa sadə xalqın iradəsini əks etdirməli olan Andlılar Məhkəməsi İnstitutunun ləğv edilməsi necə? Ədalətin hər hansısa bir şəkildə təcəlli etməsinə süni yaradılmış əngəl deyilmi? Axı bir neçə məhkəmədə ədalətli qərar çıxarılmadığını görən vətəndaş sonda bir vəsatət qaldıraraq işə Andlı İclasçılar Kollegiyasının baxmasını tələb edə bilərdi. Lakin o şans da vətəndaşın əlindən alınıb. Səbəb? Səbəb?

Mən xalqımın ədalət və mərhəmət hissinə inanıram. Əminəm ki, Məhkəmə sistemində ilkin və zəruri islahat kimi Andlılar Məhkəməsi İnstitutunu Azərbaycanda bərpa edib, inkişafını lazımi səviyyəyə çatdıra bilsək, vaxt aparan, ömür alan, çox vaxt səssiz qalan Avropa Məhkəməsinə müraciətlərə ehtiyac qalmaz. Xalq özü cinayətkarları vaxtında aşkar edib layiqli cəzalarını verər. Təyinatla vəzifəyə gətirilmiş hakimlər isə öz hədlərini bilərlər, cəlladlıq etməkdən çəkinərlər.

Qurban Məmmədlinin başçılığı altında Tərtər, Beyləqan və digər ağır cinayət işləri ilə bağlı canlı efirlər üzərindən aparılan açıq ictimai araşdırmaları və əldə edilən nəticələri xalqın iradəsi ilə baş tutmuş dünyanın ən irimiqyaslı Andlılar Məhkəməsi hesab etmək olar. Bu geniş araşdırmalar həm əsl cinayətkarları üzə çıxardı, həm də zərərçəkmişlərin tam günahsız olduğunu sübut etdilər. Cinayətkarları cəzalandırmaq və zərərçəkmişlərlə bağlı zəruri tədbirləri həyata keçirmək isə dövlətin vəzifəsidir. Gördüyümüz kimi, qanunsuzluq mühiti hökm sürən Azərbaycanda Andlılar Məhkəməsinin, yəni Xalq Məhkəməsinin bərpası həyata keçirilməsi mütləq və qaçılmaz olan sosial sifarişdir.

Bu çıxışımın mahiyyətini tam anlamaq və daha faydalı etmək üçün Yotube-da 1957 və 1997-ci illərin istehsalı olan Amerikanın “12 разгневанных мужчин” (“12 əsəbiləşmiş kişi”) və 2019-cu ilin istehsalı olan real hadisə üzərindən çəkilmiş Cənubi Koreyanın “Присяжные” (“Andlılar”) filmlərinə baxmağı məsləhət görürəm. Hər bir vətəndaşının həyatına dəyər verən insan mərkəzli dövlətin necə qurulduğunun şahidi olacaqsız.

O cümlədən Andlılar məhkəməsi ilə bağlı filmlərə çəkildiyi zaman ardıcıllığı ilə baxanda sivil dünyada diskriminasiya ilə bağlı qanunların tədricən necə işə düşdüyünü də görəcəksiz. Belə ki, XX əsrin ortalarında andlı qismində 40 yaşdan yuxarı kişilər çıxış edirdilər, XX əsrin sonlarında andlılar sırasında qaradərili kişiləri görmək olur, XXI əsrdə isə irqindən, milliyətindən asılı olmayaraq cavanlar da, qadınlar da andlı ola bilərlər.

Sonda isə hüquqşünaslarımızdan bu mövzunun aktiv müzakirələrlə gündəmə gətirilməsini xahiş edirəm.

Diqqətinizə görə minnətdaram!

31.05.2025-ci il
Xatirə Cəbrayılova, Moskva